*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 iyul 2014-cü il № 53 (1870) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Gürcüstan parlamentinin sədri David Usupaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.***

***Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi. Parlamentlərimiz arasında əlaqələrin önəmini vurğulayan Prezident İlham Əliyev parlamentlərarası, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın inkişafından məmnunluğunu ifadə etdi. Prezident qanunvericilik sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək, parlamentlər arasında əlaqələrin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini bildirdi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də NATO Dəstək Agentliyinin baş meneceri Mayk Laydeni qəbul etmişdir.***

***Görüşdə Azərbaycan ilə NATO arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan Respublikası Prezidentinin NATO-nun baş qərargahına son səfəri və səfər zamanı keçirdiyi görüşlərin əlaqələrimizin inkişafı baxımından önəmi qeyd edildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Avropa Xalq Partiyasının və Mərkəzçi Demokratlar İnternasionalının baş katibi Antonio-Lopez İsturizi qəbul etmişdir.***

***Görüşdə Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası və Mərkəzçi Demokratlar İnternasionalı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.***

***Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Nikaraqua Respublikasının xarici işlər naziri Samuel Santos Lopezi qəbul etmişdir.***

***Ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələsinə toxunan Prezident İlham Əliyev Azərbaycan ilə Nikaraqua arasında siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.***

**AzərTAc-ın materialları əsasında**

*14 iyul - Azərbaycanın həyatında dönüş günü*

# Azərbaycan siyasətinin Heydər Əliyev mərhələsi

***Ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, yəni, 1969-1982-ci illərdə ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlamışdır.***



XX əsrin 60-cı illərinin axırı Azərbaycanın ictimai-siyasi həyatında ən yeni tarixi mərhələnin başlanğıcıdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi və onun Azərbaycanda siyasi hakimiyyətinin ilk mərhələsi başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı hazırladı. Dahi siyasətci ölkədə iqtisadiyyat, kənd təsərrüfatı və mədəniyyətin yüksək templə inkişafına nail oldu. Müasir və mütərəqqi sənaye sahələri yaradıldı. Siyasi əhəmiyyətli tarixi qərarlar qəbul edildi.

Ulu öndər ölkəyə rəhbərliyinin birinci dövründə də ordu quruculuğuna daha böyük diqqət ayırır, nə vaxtsa Sovet imperiyasının dağılacağına, Vətəni Azərbaycanın azad, müstəqil olacağına inanırdı.

Sovet məkanında azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələr yaradıldığı bir vaxtda ulu öndərimiz Heydər Əliyevin göstərdiyi polad qətiyyəti, dəmir iradəsi bu gün də qəlbimizi qürur hissi ilə doldurmaqdadır. Ümummilli liderimiz 1971-ci ilin aprelində gənclərimizin hərbi peşələrə hazırlanması barədə xüsusi sərəncam imzalamışdı. Elə həmin il iyunun 20-də ordunun kadr hazırlığında əsas baza rolunu oynayacaq ixtisaslaşdırılmış hərbi məktəbin bünövrəsi qoyuldu və həmin məktəbə xalqımızın görkəmli sərkərdələrindən biri olan C.Naxçıvanskinin adı verildi. Elə bu faktın özü ulu öndərin imperiyanın ən sərt qanunları önündə belə, əsl azərbaycançılıq ideyalarına sadiqliyinin əyani nümayişi idi.

O vaxt Heydər Əliyevin SSRİ-nin hərbi məktəblərində təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına, Azərbaycanın ali hərbi tədris müəssisələrində milli kadrların yerləşdirilməsinə nail olması böyük şəxsiyyətin ölkəmizin gələcəyinə - bugünkü azad, müstəqil dövlətçiliyinə hesablanmış uğurlu gedişləri idi.

Doğrudan da, bu gün milli ordumuzun zabit heyətinin əsasını məhz C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edir. Onların 8 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" kimi şərəfli ada layiq görülüb, 100 nəfərdən çoxu orden və medallarla təltif olunub. Liseyin məzunları arasında müxtəlif qoşun növləri üzrə onlarla general və admiral, yüzlərlə yüksək rütbəli zabit yetişib. Bütün bunlar ümummilli liderimizin ölkəmizin hərbi qüdrətini artırmaq sahəsindəki gərgin zəhmətinin və fədakarlığının əyani sübutudur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Mərkəzin və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və mövcud rejimə qarşı müxalif mövqe tutmuşdur.

Heydər Əliyev sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləmiş, Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçmişdir. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Kommunist Partiyası sıralarını tərk etmişdir.

Heydər Əliyev doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıdaraq, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda Qurtuluş mübarizəsini davam etdirir. Azərbaycan Ali Sovetinin deputatı olan ulu öndər 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilən təsis qurultayında partiyanın sədri seçilir. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, yəni, 1991-1993-cü illər muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının əlamətdar tarixi mərhələsidir. Heydər Əliyev ən əvvəl Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı çıxışında dahi rəhbər Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmişdir. O, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, mühüm ideyalar, prinsipial və konkret fikirlər söyləmiş, təkliflər vermişdir. Ulu öndər siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan etmişdir. Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərərək demişdir: "Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur".

Xalqının müstəqilliyi və azadlığı uğrunda dönmədən mübarizə aparan Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa çağıran təklifinə qarşı çıxmış, bununla bağlı referendumda iştirak edib-etməmək məsələsində öz qətiyyətli mövqeyini belə ifadə etmişdir. "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

1993-cü ilin may-iyununda respublikada hakimiyyət böhranı, hərc-mərclik son həddə çatdıqda və ölkə vətəndaş müharibəsi, eləcə də müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, əsl mənada, milli hərəkata çevrildi və nəticədə Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixində yeni səhifə açıldı. Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş mübarizəsi zəfər çaldı. Bununla Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı. İyunun 24-dən isə Heydər Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində o, xalqa müraciətlə dedi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərək, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Ulu öndərin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində və ordu quruculuğu prosesində əsl dönüş yarandı, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Azərbaycan dövlətçiliyinin varlığı üçün böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu və ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s. ümumbəşəri dəyərləri təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu, dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ümummilli liderimizin xarici siyasət və ordu quruculuğu sahələrinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi və köklü dəyişikliklər baş verib. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbə endirildi və 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. Bununla, xalqımızın genefondunun məhv edilməsinin qarşısı alındı.

Heydər Əliyevin dühası, uğurlu diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. 1996-cı ildə ATƏT-in Lissabon sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadir olan qüdrətli ordumuzun formalaşmasında mühüm uğurlar qazanılmaqdadır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub









***Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 9-da Müdafə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində təlimlər keçirilən hərbi hissələrdə olub. Nazir zabit və əsgərlərlə görüşmüş, təlimə hazırlıq işlərinin gedişi ilə yaxından maraqlanmış, lazımi məsləhət və tövsiyələr vermişdir. Müdafiə nazirinin hərbi hissəyə gəlişi və şəxsi heyətlə görüşü təlim iştirakçılarında xoş ovqat oyatmışdı. Döyüş ruhunun belə yüksək olması isə təlimin uğurla başa çatacağından xəbər verirdi. Təlimə ciddi hazırlaşan zabit və əsgərlər hədəfləri dəqiq vuraraq müsbət nəticələr göstərmək əzmində idilər.***

Təlimlərdə uğur qazanmağın ən vacib amillərdən biri, bəlkə də ən başlıcası hazırlıqdan və burada iştirak edən zabit və əsgərlərin döyüş ruhunun yüksək səviyyədə olmasından çox asılıdır. Əgər hərbçi təlimə ciddi hazırlaşıbsa, məşq edib təcrübə qazanıbsa, deməli, artıq o, döyüş bacarığına malikdir. Ona görə də böyük sərkərdələr həmişə təlimə yüksək qiymət veriblər. Təbiidir ki, müasir dövrümüzdə bu tələb hələ də öz dəyərini itirməmişdir.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissələrə səfəri çərçivəsində müdafiənin ön xəttində mövcud olan vəziyyətlə, zirehli texnikaların döyüşə hazırlığı, atəş imkanları və səmərəli istifadəsi, döyüş növbətçiliyinin yüksək səviyyədə təşkili və aparılması, o cümlədən hərbi qulluqçuların mənəvi-psixoloji durumu və sosial-məişət şəraiti ilə yaxından tanış olub. Hərbçilərin təlimə çox ciddi hazırlaşdıqları göz qarşısında idi. Sıra ilə dayanmış zirehli texnikalar hər an səfər marşına hazır idi. Belə yüksək hazırlığa çatana qədər zabit və əsgərlər dərslər, məşğələlər keçib, zəngin döyüş təcrübəsi toplayıblar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüş növbəsi çəkən hərbi qulluqçularla görüşüb, xidmətdə fərqlənənlərə hədiyyələr təqdim edib. Bütün şəxsi heyətə təlim və döyüşlərdə uğurlar arzulayıb. Zabit və əsgərlər xidmətlərinə verilən layiqli qiymətə görə Müdafiə nazirinə minnətdarlıq ediblər. Və bundan sonra da Vətənin müdafiəsi naminə döyüş tapşırıqlarını can-başla yerinə yetirəcəklərini, torpaqlarımızı hər an işğaldan azad edəcəklərini bildiriblər.

Hərbi hissələrə səfər edərkən Müdafiə naziri həmçinin müdafiə xəttinin daha da təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verib. Zabit və əsgərlərin bütün diqqətlərini verilən əmr və tapşırıqların icrasına yönəltməyi tövsiyə edib.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Əsgərlər yüngül xəsarət alıb

İyulun 8-də keçirilən təlimlər zamanı qumbara ilə ehtiyatsız davranma nəticəsində əsgərlər Həşimli Bəhram Məhərrəm oğlu, Məmmədov Orxan Allahverdi oğlu və Ağalarzadə Rəhimağa Əsgər oğlu yüngül xəsarət alıb.

İlkin tibbi yardım göstərilən hərbi qulluqçular Gəncə qarnizon hospitalına yerləşdiriliblər. Vəziyyətləri kafidir.

## Silahlı Qüvvələrimizin nümayəndələri dəniz təlimində iştirak edəcəklər

Azərbaycan-Türkiyə ikitərəfli əməkdaşlıq planına əsasən, iyulun 11-dən avqustun 9-dək İstanbul şəhərində (Türkiyə) açıq dəniz təlimi keçiriləcək.

Təlimdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**9 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 19 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Horadiz, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Tərtər rayonunun Qızıloba, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**10 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 24 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağdam kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Ağdam rayonunun Mərzili, Şıxlar, Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**11 iyul 2014-cü il.**

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Ağdam rayonunun Şıxlar kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Düşmən dəqiq atəş zərbəsi ilə susdurulur

***Zabit Qiyas Abbasovla qısa söhbətdən sonra barıt qoxulu səngərlərdə dayanan zabit və əsgərlərlə görüşmək üçün kapitan Sahib Seyidovla birlikdə ön xəttə yola düşdük. Bu gün hava çox bürküludür. Nə külək, nə də meh əsir. Heç ağacların yarpağı da tərpənmir. Hər tərəfə sakitlik çöküb. Xeyli irəlilədikdən sonra maşınımız tozlu-torpaqlı yola çıxdı. Boz dərələrdən keçən yollar bizi səngərlərə - torpaqlarımızın keşiyində dayanan zabit və əsgərlərin yanına aparır.***





- Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək, torpaqlarımızın keşiyində dayanmaq hər birimizin borcudur, - deyə kapitan Sahib Seyidov sözə başladı. - Bu, olduqca şərəfli və müqəddəs bir vəzifədir. Hər kəs bu vəzifənin nə qədər müqəddəs olduğunu dərindən dərk edir. Şəxsi heyət keşiyində dayandığı Vətən torpaqlarını göz bəbəyi kimi qoruyur. Düşmən atəşkəs rejimini pozmağa cəhd edəndə, vaxt itirmədən ona layiqli cavab verilir və atəş nöqtələri susdurulur.

Bir azdan görüşüb söhbət edəcəyimiz əsgərlər böyük hünər göstərərək düşmən hücumunun qarşısını alıblar. Hücum qəflətən olub. Gözlənilməyən bu həmləni dəf edərkən əsgərlər qorxmazlıq və hünər nümayiş etdiriblər. Məqsədinə çata bilməyən erməni qəsbkarları güclü müqavimətlə qarşılaşaraq geri çəkilməyə məcbur olublar.

Sürücümüz əsgər Elnur Osmanov da xeyli müddətdir ki, doğma ordumuzun sıralarındadır. Elə ilk dəqiqədən hiss olundu ki, avtomobili məharətlə idarə edir. Bacarıqlı sürücü olmaqla yanaşı, həm də bu yerləri yaxşı tanıdığının şahidi olduq.

Ön xətdə dayanan hərbçilərin yanına çatanda artıq gün xeyli qalxmışdı. Bizi burada kapitan Qəmbər Paşayev qarşıladı. Şəxsi heyət yenə də döyüşə hazır vəziyyətdə öz yerini tutmuşdu.

- Torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanan əsgərlərlə fəxr edirik, - dedi zabit. - Onlar yurdumuzu göz bəbəkləri kimi qoruyurlar. Düşmənin basqını, hücumu olan kimi silaha sarılaraq qəsbkarlara sarsıdıcı zərbə vururlar. Bir neçə gün əvvəl də əsgərlərimiz düşmən hücumunun qarşısını qətiyyətlə aldılar. Posta hücüm etmək istəyən erməni işğalçıları dəqiq atəş zərbələri ilə geri oturduldu. Hər bir əsgər üzərinə düşən vəzifənin öhdəsindən şərəf və ləyaqətlə gəldi.

Sonra söhbətimi post başçısı gizir Namiq Şıxəliyevlə davam etdirdim. Gizir baş verən düşmən hücumundan qısaca söz açdı:

- Gecə saat iki-üç radələrində həmişəki kimi postda xidmətimizi davam etdirirdik. Müşahidə qurğusundan ətrafa baxanda gördüm ki, mövqeyimizə tərəf bir neçə erməni quldiru addımlayır. Və elə həmin an silahı bu istiqamətə tuşlayıb atəş açdım, "həyəcan" siqnalı verdim. Mövqelərində ayıq-sayıq dayanmış əsgərlər düşmən üzərinə müxtəlif istiqamətlərdən güllə yağdırmağa başladılar. Erməni işğalçıları mövqelərimizə bir çox yerlərdən atəş açırdılar. Əsgərlərimiz məharətlə bu güllələrdən qorunaraq qəsbkarların hücumlarının qarşısını aldılar. Qarşımızda duruş gətirmək gücündə olmayan erməni işğalçıları geri çəkildilər. Bir azdan güllə səsləri kəsildi, ətraf sakitliyə büründü.

Sübh çağına qədər gözümüzü qırpmadan mövqelərimizdə dayandıq. Fikirləşdik ki, düşmən yenə də hücuma keçə bilər. Səhər açılanda ətrafda müşahidə apardıq. Heç kəs gözə dəymirdi. Qəsbkarlar mövqelərinin dərinliyinə çəkilmişdi. Əsgərlərimizin sayıqlığı və igidliyi sayəsində atəşkəs rejimini pozmağa cəhd göstərən düşmən məğlub olub geri çəkilmişdi.

Gizir Namiq Şıxəliyev düşmən hücumunun qarşısını alarkən hünər göstərmiş əsgərlərdən Çingiz Səmədov, Araz Həsənli, Qubadxan Nuruyev, Ayaz Əsədov, Rövşən Abdullayev, Ramin Hüseynov, Elşən Səfərov və başqalarının adlarını çəkdi. Dedi ki, verilən tapşırıqların öhdəsindən bacarıqla gələn bu əsgərlər, həmişə mövqelərində ayıq-sayıq dayanırlar.

Düşmən hücumunun qarşısını alarkən cəsarət göstərmiş əsgərlərin üzü gülürdü. Əsgəri borclarını sədaqətlə yerinə yetirməkdən qürur duyurdular.

- Hər kəsin borcudur ki, Vətənə şərəf və ləyaqətlə xidmət etsin, - deyə əsgər Elşən Cəfərov dilləndi:

- Torpaqlarımızın keşiyində dayanmağım az vaxt deyil. Kifayət qədər təcrübə qazanmışam. Silahların sirlərini yaxşı öyrəndiyimdən, hədəflərə dəqiq atəş açmağı bacarıram. Erməni işğalçılarının mövqelərimizə son hücumu zamanı da, biz səngərdə öz postumuzda xidmətimizi davam etdirirdik. Həmişəki kimi ermənilərin hücumu qəflətən oldu. Dərhal mövqe tutub işğalçılarla vuruşduq. Qəsbkarlar bir addım da olsun irəliləyə bilmədilər.

Leytenant Vüsal Talıbovla dərin səngərləri, postları gəzdik. Taqım komandirinin məqsədi ərazi ilə məni tanış etmək idi. Postlardan birinə qalxıb erməni işğalçılarının tapdağı altında olan torpaqlarımıza baxırıq. Düşmən mövqeləri aydın görsənir. Ətrafda kimsə gözə dəymir. Leytenant Talıbov deyir ki, düşmən ərazisində müntəzəm olaraq müşahidə aparan nəzarətçi əsgər gördüklərini qeydə alır və baş verən dəyişikliklər barədə rabitə vasitəsilə komandirə çatdırırıq.

Müşahidə qurğusundan baxanda xeyli uzaqda erməni qəsbkarlarının kazarmaları və mövqeləri görsənir. Amma ətrafda kimsə görsənmir. Düşmən Azərbaycan əsgərinin silahından, dəqiq atəş zərbəsindən qorxaraq gizlənib. İşğalçıların tapdağı altında qalan torpaqlarımız boynunu büküb yolumuzu gözləyir. Azərbaycan əsgərinin nəfəsini duymaq, səsini eşitmək istəyir.

Bir azdan zabit Qiyas Abbasov da ön xətdə dayanmış əsgərlərin yanına gəldi. Onun gəlişi yurdumuzun müdafiəçilərində xoş ovqat oyatdı. Əsgərlərlə görüşüb hal-əhval tutan zabit düşmən hücumunun qarşısını qətiyyətlə aldıqlarına görə onlara minnətdarlıq etdi. Əsgərləri fəxri fərmanla mükafatlandırdı, döyüşdə fərqlənənlərə məzuniyyət verdi.

Bir azdan səngərə qarşı tərəfdən əsən meh bir az da gücləndi. İşğal altında olan dağlarımızın sərinliyi üzümüzü üşütdü. Barıt qoxulu səngərdən, cəsur əsgərlərdən xoş təəssüratlarla ayrıldım. Bir daha əmin oldum ki, torpaqlarımız Azərbaycan əsgərləri tərəfindən etibarlı qorunur. Təbiidir ki, bu gün düşmən hücümunun qarşısını qətiyyətlə alıb geri oturdan əsgərlər sabah döyüş meydanlarında qələbə qazanacaqlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Düşmənə layiqli cavab verilir

Səngər həyatı döyüşçünü daha da mətinləşdirir, ona cəsurluq, qorxmazlıq aşılayır. Bunu ön xətdə olarkən əsgərlərin qürurunda və əzmində görmək heç də çətin deyil. Dəyər verdiyimiz, hər zaman diqqət və sayğı göstərdiyimiz Vətən müdafiəçilərini görəndə ilk düşündüyümüz də elə bu olur ki, nə vaxt erməni işğalı altında olan yurd yerlərimiz azad olunacaq? Nə vaxta kimi doğma Qarabağımıza, düşmənin viran qoyduğu şəhər və kəndlərimizə səngərdən baxacağıq? Söz yox ki, bu suallar hər bir Vətən oğlunu narahat etməyə bilməz. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əmrini gözləyən əsgərlərimiz hər an düşmənə cavab verməyə hazırdırlar.





Vətən sərhəddən başlayır, deyiblər. Amma, sərhədləri aşıb Vətənin bağrını yaran bu səngərlər heç vaxt sərhəd ola bilməz. Vaxt gələr ki, torpaqlarımız işğaldan azad edilər və bu səngərlər də olmaz. Bu gün müvəqqəti işğala sevinən düşmən unutmasın ki, qarşıda onu əbədi məğlubiyyət gözləyir. Çünki biz bir millət olaraq işğal faktı ilə barışan deyilik. Ərazi bütövlüyümüzü nəyin bahasına olursa-olsun, bərpa edəcəyik.

Söz yox ki, biz bunun üçün daha çox çalışmalıyıq. Əsgərlərimizin döyüş qüdrətini hər zaman artırmalıyıq. Necə ki, son vaxtlar təmas xəttində özünün varlığını sübut etmək istəyən düşmən mərd döyüşçülərimizin qarşısında aciz qaldı. Düşmənin bu cür həmlələrinin dəfələrlə şahidi olan döyüşçülərimiz heç vaxt ruhdan düşmür, əksinə, daha qətiyyətli, düşmənə qarşı amansız olurlar.

Ötən gecə düşmənin kəşfiyyat-diversiya qrupunun həmlə etdiyi postdayam. Burada zabit Babək Bayramovla görüşürəm. Zabit qeyd edir ki, əsgərlərimiz bir an olsun belə sayıqlıqlarını itirmirlər.

Daha sonra zabit düşmənə layiqli cavab verən döyüşçülərdən danışdı, əsgər Asif Məmmədovun adını xüsusi vurğuladı. Əsgərin sayıqlığı və çevikliyi nəticəsində düşmənin növbəti təxribatının qarşısı qətiyyətlə alınıb.

Zabit B.Bayramov daha sonra bildirir ki, ermənilər müxtəlif vaxtlarda ayrı-ayrı postlara da bu cür basqılar təşkil edirlər. Lakin belə niyyətlərin qarşısı əsgərlərimiz tərəfindən qətiyyətlə alınır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

***Vətən! Hamımızın qüruru, ümid, güvənc yerimiz. Milli mənəviyyatımız, qəlbimizi riqqətə gətirən gözəl, əsrarəngiz məkan. Vətənə bağlılıq insanlarda vətənpərvərlik hisslərini formalaşdırır. Bu hissin təsiri altında yurda daha çox bağlanır, torpağımızı daha çox sevirik.***

Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır, dünyaya göz açdığımız şərəfli bir yerdir.

Bəs görəsən Vətənə sevgi, Vətən sevgisi necə olmalıdır? Elə düşünürəm ki, bir insanın millətini, Vətənini sevməsi, demək, onun dinini, dilini, əxlaqını və tarixini sevməsi deməkdir. Bir millətin dini, dili, əxlaq və tarixi o xalqın mədəniyyətinin göstəricisidir.

Hər hansı bir millətin yerləşdiyi, məskunlaşıb yaşadığı coğrafi ərazinin adı Vətəndir. Bir millət üçün Vətən, sadəcə üzərində yaşadığı düzənlik, dağ, meşə, axar çaylar və sular demək deyildir. Mədəniyyətimizdə Vətən şərəf və azadlığımızın bir başqa adıdır. Allah eləməsin, Vətən itirilərsə, yurd əldən gedərsə, əxlaqi və bütün müqəddəs dəyərlərimiz də onunla birlikdə itmiş sayılır. Elə ona görə də hər bir vətəndaş torpağı qorumaq uğrunda canından keçməyə hər an hazır olmalıdır. Düşmənə aman vermədən döyüşməli, vuruşmalıdır.

# Hər qarış torpaq uğrunda...



Bəs nədir ürəklərimizi riqqətə gətirib ruhumuzu coşduran bu sözün mənası? Vətən - doğma diyar, ana yurd deməkdir. Vətən - dədə-babaların əmanəti, tariximiz, ənənəmiz, azadlığımızdır... Vətən - bir millətin illər uzunu yaşadığı, adət-ənənəsinin, varlığının, şüurunun, birliyinin torpağı ilə birləşdiyi məkandır. Bəs haradan başlanır Vətən? Təbiidir ki, Vətən cəsur əsgərlərimizin əldə silah keşik çəkdiyi sərhədlərdən başlanır.

Hazırda gənclərimizin milli dəyərlərimizə uyğun təlim-tərbiyəsi hamımızı dərindən düşündürməlidir. Danılmaz bir faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığı, igidliyi yaradan amildir.

Azərbaycan öz şanlı qəhrəmanları ilə həmişə fəxr edib. Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq zaman-zaman öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olan Azərbaycanın qəhrəman oğul və qızlarının ibrətamiz həyatı, şəxsi igidlik nümunələri vətənpərvərlik tərbiyəsi işində həmişə öndə olmalıdır. Müstəqil dövlətdə yaşayan hər bir gənc ilk növbədə bu ölkənin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidir.

Bu gün vətənpərvərlik Vətənin göz bəbəyi kimi qorunmasında təzahür edir və bunu bugünkü gənclərimiz bütün məsuliyyəti ilə dərk edirlər. Sadə vətəndaş öz vətənpərvərliyini yaxşı oxumaqda, işləməkdə, alim maraqlı elmi kəşflər etməkdə, gənclərimiz isə doğma torpağımızı və dövlətimizi fədakarlıqla qorumaqda görürlər. Vətənpərvərlik hissinin məzmununu doğma Vətənə məhəbbət, onun tarixi keçmişi, adət-ənənələri ilə fəxr etmək, millətin mənafeyini öz mənafeyin kimi dərk etmək və onun müdafiəsinə hər an hazır olmaq təşkil edir.

**Mayisə ƏSƏDULLAQIZI,**
**şairə-publisist**

# Sülhün qorunması məhsuliyyətli missiyadır

## Əfqanıstanda xidməti borclarını başa vurmuş 30 nəfər hərbçimiz Vətənə qayıdıb



***Vətənə qayıdan sülhməramlılarımız sevincli və qürurluydular. Uzun müddətdən sonra Vətən torpağına ayaq basan döyüşçülərimizin gözündə sevinc hiss olunurdu. Sülhməramlı kontingentin taqım komandiri baş leytenant Turxan Rzayev öncə sıra qarşısına çıxaraq bir qrup sülhməramlının Əfqanıstanda vəzifə borcunu yerinə yetirərək Vətənə qayıtması barədə mayor Anar Cavadova raport verdi. Sonra A.Cavadov sülhməramlıları salamlayaraq vəzifələrinin öhdəsindən uğurla gəldikləri üçün onları hərbi hissənin şəxsi heyəti adından təbrik etdi.***

Yaranmış fürsətdən istifadə edib qəzetimiz üçün döyüşçülərimizdən müsahibə alıram. İlk müsahibim sülhməramlı kontingentin taqım komandiri baş leytenant Turxan Rzayevdir.

***- Yoldaş baş leytenant, 9 aydan sonra Vətənə qayıtmaq necə hissdir?***

- Vətənimdən, doğmalarımdan uzaqda çətin olsa da, Əfqanıstanda xidmət etmək şərəflidir. Çünki davranışımızla, nizam-intizamımızla, mədəniyyətimizlə təkcə özümüzü deyil, Azərbaycanı təmsil edirdik.

***- Hazırda regionda qüdrətli hərbi qüvvə hesab edilən Azərbaycan Ordusu haqqında digər ölkələrin sülhməramlıları hansı düşüncədədirlər?***

- Cəsarətlə demək lazımdır ki, sülhməramlı əsgər və zabitlərimizin Əfqanıstandakı sülhyaratma əməliyyatlarında fəal iştirakı qüdrətli dövlətlərin hərbi dairələrində də rəğbətlə qarşılanır.



***- Əfqanıstanda xidmətiniz barəsində nə deyə bilərsiniz?***

- Sülhməramlı bölüyümüz Əfqanıstanın Kabul şəhərində yerləşən strateji obyektin mühafizəsini yerinə yetirirdi. Dünyanın mürəkkəb bir münaqişə bölgəsində xidmət etmək nə qədər çətin, məsuliyyətli olsa da, şərəfli və müqəddəsdir. Hər bir sülhməramlı hərbçimiz qarşısına qoyulan vəzifənin məsuliyyətini dərindən dərk edirdi. Hər birimiz yaxşı bilirik ki, biz beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı altında xidmət etməklə, Vətənimizi və Silahlı Qüvvələrimizi təmsil edirik. Hər birimiz sülhməramlı qüvvələr tərkibində xidmət etməkdən qürur hissi keçirmişik.

Növbəti həmsöhbətim sülhməramlı kontingentimizin baş çavuşu vəzifəsində xidmət etmiş gizir Faiq Qasımovdur.

- 9 aydır ki, Əfqanıstandakı sülhməramlı kontingentimizin tərkibində xidmət edirəm, - dedi F.Qasımov. - Xidmətimiz ikiqat məsuliyyətli idi. Həm qarşımızda qoyulan vəzifəni layiqincə yetirmək məsuliyyətini, həm də digər dövlətlərin sülhməramlı qüvvələri arasında ölkəmizi lazımi səviyyədə tanıtmağın şərəfini dərk edirdik. Amma şükürlər olsun ki, öz üzərimizə düşən vəzifəni şərəfli bir şəkildə başa vurduq.

Əsgərlər Almasov və Məmmədov qürbət diyarda xidmət etməyin çətin olduğunu bildirsələr də, başlarının üstündə dalğalanan üçrəngli bayraqdan qüvvət aldıqlarını qeyd etdilər. Aldıqları medalları göstərərək öz nümunəvi xidmətlərindən ağızdolusu danışan əsgərlər fərəh hissi duyduqlarını bildirdilər.

"Bütün ölkələrin sülhməramlı qüvvələri arasında xidmət etmək və medalla təltif olunmaq həqiqətən qürurvericidir. Biz də silahdaşlarımız kimi Əfqanıstanda sülhün və təhlükəsizliyin qorunmasında iştirak etdiyimiz üçün fəxr hissi duyuruq".

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin zabitləri Fransada keçiriləcək hərbi paradda iştirak edəcəklər

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup zabiti Fransanın milli bayramı - Bastiliyanın alınması günü və Birinci Dünya müharibəsinin 100 illiyi münasibətilə Parisdə keçiriləcək hərbi paradda iştirak etmək üçün bu ölkədə səfərdədir.***

AzərTAc xəbər verir ki, Fransa Silahlı Qüvvələrinin nümayəndələri ilə birgə məşqlərə başlayan zabitlərimiz Azərbaycan Respublikasının bayrağını ilk dəfə olaraq iyulun 14-də Parisdə keçiriləcək hərbi paradda dalğalandıracaqlar.

Azərbaycan ilə Fransa arasında movcud olan dostluq əlaqələri son zamanlar müdafiə sahəsində də əməkdaşlığın uğurlu inkişafına şərait yaratmışdır. Azərbaycan Respublikası Müdafiə nazirinin bu ilin yanvarında Fransaya rəsmi səfəri zamanı əldə edilən razılıq ikitərəfli hərbi əlaqələrin inkişafı üçün geniş imkanlar açmışdır.

Fransanın milli bayramı münasibətilə keçiriləcək paradda ilk dəfə Azərbaycan Silahlı Qüvvələrinin zabitlərinin iştirakı ölkələrimiz arasındakı sıx dostluq münasibətlərinin və əməkdaşlığın bariz nümunəsidir.

# Xəbərlər:
## hadisələr, faktlar

### Dünya Bankı Azərbaycanı Ermənistandan 7 dəfə qüdrətli hesab edir




Dünya Bankı ümumi daxili məhsulun həcminə görə dünyanın 191 ölkəsinin reytinqini açıqlayıb. İqtisadiyyatının həcminə görə ABŞ liderlik edir - 16,8 trilyon dollar. Çin ABŞ-dan sonra ikincidir - 9,2 trilyon dollar.

Hesabata əsasən, Azərbaycan öz iqtisadiyyatının həcminə görə keçmiş SSRİ-nin 6 ölkəsinin cəmini qabaqlayır.

Hesabatda deyilir ki, keçmiş SSRİ respublikaları arasında iqtisadiyyatının həcminə görə Rusiya liderdir. Rusiyanın ÜDM-in həcmi 2,1 trilyon dollardır. İkinci ən iri iqtisadiyyata malik keçmiş sovet respublikası Qazaxıstandır - 224,4 milyard dollar. Qazaxıstandan sonra ÜDM-in həcminə görə Ukrayna gəlir - 177,4 milyard dollar. Ukraynadan sonra keçmiş sovet respublikaları arasında ən iri iqtisadiyyata malik ölkə Azərbaycandır. Azərbaycan 73,6 milyard dollarlıq ÜDM-lə dünya ölkələri arasında 67-ci sırada yer alır.

Ermənistan 10,4 milyard dollarlıq iqtisadiyyatı ilə MDB regionunda və dünyada ən aşağı yerlərdən (135) birindədir.

### Donbasda 4 şəhərə Ukraynanın nəzarəti bərpa olunub



Rəsmi Kiyev bildirir ki, Ukrayna ordusu ötən gün Donetsk vilayətindəki 4 şəhərdə nəzarəti geri qaytarıb. Yaşayış məntəqələrində normal həyat bərpa olunur.

Luqanskda keçirilən hərbi əməliyyatlar nəticəsində təxminən 80 nəfər xəsarət alıb. Bu barədə qondarma Luqansk Xalq Respublikasının nümayəndələri məlumat veriblər.

Ukrayna Daxili İşlər Nazirliyindən verilən məlumata görə, xəsarət alanlardan 56-sı dinc sakindir.

### Bolqarıstan Türkiyə ilə sərhədində sədd çəkir




Bolqarıstanın Müdafiə naziri Angel Naydenov bildirmişdir ki, ölkəsinin Türkiyə ilə sərhədində tikilən 30 kilometr uzunluğunda sədd yaxın günlərdə təhvil veriləcəkdir. Bu sədd Suriyadan Bolqarıstana gələn qaçqın axınının qarşısını almaq üçün inşa edilir.

Qeyd olunmuşdur ki, Suriyada baş verən münaqişələr nəticəsində Bolqarıstan da kütləvi qaçqın axını ilə qarşılaşmışdır. Ölkənin iqtisadi böhran vəziyyətində olmasına baxmayaraq, qaçqınlar üçün düşərgələr salınmış, onlara müxtəlif yardımlar göstərilmişdir.

### Moskvadan Barselonaya uçan təyyarə qəza təhlükəsi ilə üzləşmişdir



AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, "Utair" aviaşirkətinə məxsus "Boeing 767" sərnişin təyyarəsi "El Prat" hava limanına enərkən qəfildən "Argentina Hava Yolları"na məxsus "Airbus 340" təyyarəsi ilə qarşılaşmışdır. Təhlükəni görən "Boeing"in pilotu təyyarəni yenidən havaya qaldırmışdır. "Boeing" dövrə vurduqdan sonra aeroporta enmişdir.

Həvəskar barselonalı hadisəni kameranın yaddaşına köçürə bilmişdir. Görüntülər internetə qoyulduqdan sonra aviaşirkət hadisə barədə açıqlama verməyə məcbur olmuşdur. Şirkət rəsmiləri bu cür halların təbii olduğunu bildirmişlər.

### Keniyada terror aktları zamanı 29 nəfər həlak olmuşdur



Terrorçuların hədəfinə çevrilən Keniyanın dəniz sahilində yerləşən Lamu və Mnektoni yaşayış qəsəbələrində iyulun 5-də gecə radələrində törədilən iki terror aktı nəticəsində 29 dinc sakin həlak olmuşdur. Bu barədə ölkənin daxili işlər naziri məlumat yaymışdır.

Nazir terror aktlarının Keniya və Somali ərazilərində hərəkət edən "Əş-Şabab" qruplaşması tərəfindən törədildiyini bəyan etmişdir.

Hər iki hadisəni öz üzərinə götürən "Əş-Şabab" qruplaşması terror aktlarını Afrika Birliyi hərbi birləşmələrinin ölkədə sabitliyi qorumaq məqsədilə yerləşdirilməsinə etiraz əlaməti olaraq törətdiklərini bildirmişlər.

### Yaponiyanın Miyako adasına güclü tufan yaxınlaşır



Güclü "Neoquri" tufanı Yaponiyanın ən cənub rayonu olan Okinavanın Miyako adasının şimalına yaxınlaşmaqdadır.

Yaponiya Meteorologiya İdarəsinin verdiyi məlumata görə, bu, son bir neçə on ilin ən güclü tufanıdır. İdarənin Miyako adasının və Okinava digər rayonlarının əhalisi üçün dərc etdiyi xəbərdarlıqda güclü küləyin və dənizdə hündürlüyü 14 metrə çatan böyük dalğaların gözlənildiyi bildirilir.

Sinoptiklər əhalini güclü külək, hündür dalğalar və leysan yağışlara qarşı tam ehtiyatlı olmağa çağırırlar.

Okinavanın on yaşayış məntəqəsinin inzibati orqanları 500 minədək sakinə təxliyə olunmağı tövsiyə etmişlər.

Aviaşirkətlər Okinava adasına və oradan uçuşları təxirə salmışlar. Dəniz nəqliyyatının hərəkəti də dayandırılmışdır.

Bütün məktəblər və uşaq bağçaları bağlanmışdır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# "Vətənə xidmətə görə sağ ol!"

## Müdafiə Nazirliyi və Zərdab rayon İcra Hakimiyyəti birgə tədbir keçirib



***Bu günlərdə respublikanın bütün şəhər və rayonlarında, Silahlı Qüvvələrin Əlahiddə Ümumqoşun Ordusu birlik, birləşmə və hərbi hissələrində böyük qələbəlik vardır. Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2014-cü il tarixli sərəncamından irəli gələn vəzifələr uğurla həyata keçirilir.***

Müdafiə Nazirliyi və Zərdab rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənə xidmətə görə sağ ol!" devizi altında təşkil olunan təntənəli mərasim yeni ənənə olmaqla yanaşı, həm də ordu ilə xalqın monolit birliyinin təntənəsinə çevrilmişdir.

Tədbir iştirakçıları, qonaqlar, ordudan ehtiyata buraxılan hərbi qulluqçular və müddətli həqiqi hərbi xidmətə çağırılan gənclər əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin möhtəşəm abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin xatirəsini hörmət və ehtiramla yad etdilər.

Heydər Əliyev Mərkəzinin geniş ekspozisiyası ilə tanışlıq oldu. 1941-1945-ci illər Böyük Vətən müharibəsində, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirə kompleksləri, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun abidəsi ziyarət edildi.

Bayramsayağı bəzədilmiş Heydər Əliyev parkının konsert-tamaşa meydanında təntənəli mərasim açıq elan edildi. Bütün iştirakçılar Cəmşid Naxçıvanski adına Hərbi Liseyin orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Zərdab rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev qonaqları və tədbir iştirakçılarını salamladı. O qeyd etdi ki, dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Fransada Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı son dərəcə cəsarətli, kəsərli və müdrik çıxışı bütün xalqımız kimi zərdablıların da ürəyincə olmuşdur. Cənab Prezidentin real həqiqəti əks etdirən çıxışı riyakar, böhtançı və məkrli erməni siyasətinin, xalqımıza və dövlətimizə düşmən mövqedə dayanan bir qrup qüvvələrin bel sütununu sındırmışdır.

Ölkə rəhbərinin bu qətiyyətli çıxışı bir daha sübut etdi ki, məhz onun rəhbərliyi, Ali Baş Komandanlığı ilə tezliklə ədalət zəfər çalacaq, işğalda olan torpaqlarımız azad ediləcək və bayrağımız Şuşada, Xankəndidə dalğalanacaqdır.

Müharibə şəraitində yaşayan, torpaqlarının bir hissəsi işğal edilən ölkəmizin hər yerində olduğu kimi, Zərdabda da vətəndaşların, xüsusilə də gənclərin vətənpərvərlik tərbiyəsinə ciddi fikir verildiyini vurğulayan icra başçısı daha sonra bildirdi ki, zərdablı gənclər də Azərbaycan Silahlı Qüvvələrində öz əsgəri borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

Təkcə Zərdab rayonundan torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə 130-dan çox gənc şəhid, 104 nəfər isə əlil olmuşdur.

Ölümündən sonra rayonun Gödəkqobu kənd sakini Zeyqəm Aslanov "Azərbaycan bayrağı ordeni" və "Hərbi xidmətlərə görə medalı" ilə, Bıçaqçı kənd sakini, Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi qəhrəman Məlik Məhərrəmovun həmkəndlisi Müşfiq Hacıyev və Hüseynxanlı kənd sakini Nurəmir Əliyev "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşlar.

Gəlmə kənd tam orta məktəbinin "Cəsurlar" komandası 2-ci dəfədir ki, hərbi idman və turizm yarışlarının respublika final mərhələsində birincilik qazanır.



Daha sonra icra başçısı qeyd etdi ki, Böyük Vətən müharibəsi illərində də zərdablılar həm ön, həm də arxa cəbhədə fəallıq göstərmişlər. Cəbhəyə gedən 3000 nəfər zərdablının yarıdan çoxu həlak olmuş, itkin düşmüşdür. Yüzlərlə zərdablı keçmiş Sovetlər İttifaqının orden və medalları ilə təltif olunmuş, Məlik Məhərrəmov Sovet İttifaqı Qəhrəmanı, Muradalı Heydərov isə "Şöhrət" ordeninin hər 3 dərəcəsinə layiq görülmüşdür.

Bu gün də zərdablılar öz övladlarını Vətənin müdafiəsinə böyük həvəslə yola salır, arxa cəbhədə fədakarlıqlar göstərirlər. Zərdablılar yaxşı bilirlər ki, ön cəbhədə qələbənin əldə olunmasının əsas şərtlərindən biri də arxa cəbhənin fəallığı, daim ön cəbhədəki əsgərin qayğıları ilə yaşamasındadır.

Tədbirin ideya müəllifi, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani isə öz çıxışında son vaxtlar Silahlı Qüvvələrdə aparılan uğurlu islahatlardan, ordu quruculuğu sahəsindəki yeniliklərdən, ordumuzun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsi, ictimaiyyətlə əlaqələrin genişləndirilməsi, şəhid və əsgər ailələrinə diqqət və qayğı barədə danışdı. Polkovnik qeyd etdi ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusudur və Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdır. Ordu quruculuğu məsələləri Ali Baş Komandanımızın siyasi fəaliyyətinin əsas prioritetidir. A.Qurbaninin şeirləri əsasında hazırlanmış "Vətən, sənin əsgərinəm" ədəbi kompozisiyadan sonra ehtiyata buraxılmış hərbi qulluqçular meydana dəvət olundular. Onlar builki taxılın unundan bişirilmiş çörəklə qarşılandı. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və icra başçısı Lütvəli Babayevin adından onlara hədiyyə və təşəkkür məktubları təqdim edildi.



Tədbirə Böyük Vətən müharibəsi əsgərinin qiyafəsində gəlmiş kavaler ordenli Muradalı baba cavanlığını, müharibədən qayıtdığı günləri xatırlayaraq kövrəldi və əsgər nəvələri təbrik etdi.

Vətənpərvərlik mövzusunda mahnılar və rəqslər bir-birini əvəz etdi.

Cəbhə bölgələrindəki hərbi hissələrdə xidmət etmiş Natiq Alcanov, Firudin Abdullayev, Pərviz Qəhrəmanlı və başqaları fəxrlə danışaraq qeyd etdilər ki, həqiqi hərbi xidməti başa vurublar. Ancaq həmişə Vətənin əsgəridirlər və hər zaman Ali Baş Komandanın əmrlərinə hazırdırlar. Qarabağ uğrunda müharibənin ikinci mərhələsində onlar yenə də ön səngərdə olacaq, şəhidlərimizin intiqamını alacaqlar.

Əsgər valideynləri çıxış edərək Azərbaycan Ordusunda övladlarının xidmət keçməsi üçün hər cür şərait yaratdıqlarına görə ölkə rəhbərinə, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Şəhid Müşfiqin atası Zabit Hacıyev öz çıxışında Vətən uğrunda şəhid olanların ailələrinə daim diqqət və qayğı göstərildiyini vurğulayaraq "Təki Vətən sağ olsun!", - dedi.

Hərbi marşın sədaları altında meydana daxil olan müddətli həqiqi hərbi xidmətə yollanacaq bir qrup gənc rayon rəhbərliyi tərəfindən mükafatlandırıldı. Gənc çağırışçılardan Orxan Həsənzadə, Camal Əlizadə söz verdilər ki, onlar həmyerlilərinin etimadını doğruldaraq Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanacaqlar.

"Vətənə xidmətə görə sağ ol!" devizi altında keçirilən tədbir Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının rəngarəng konsert proqramı ilə davam etdirildi.

Mərasimin sonunda rayon icra hakimiyyətinin başçısı Lütvəli Babayev tədbirin təşkilində göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və təşkilatçılara rayon ictimaiyyəti adından minnətdarlığını bildirdi.

**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## İdman

### Finalda Argentina və Almaniya yığmaları qarşılaşacaqlar



Braziliyada futbol üzrə XX dünya çempionatı davam edir.

Mundialin ilk yarımfinalında Braziliya və Almaniya milli komandaları qarşılaşmışlar. Rəqibini 7:1 hesabı ilə məğlub edən Almaniya millisi dünya çempionatının final mərhələsinə yüksəlmişdir. Argentina və Hollandiya milli komandalarının qarşılaşmasında isə qalibi müəyyənləşdirmək üçün oynanılan əlavə vaxtda da qapılara qol vurulmamışdır. Türkiyəli baş hakim Cüneyt Çakırın idarə etdiyi oyunda qalib penalti seriyasında müəyyənləşmişdir. Rəqibini 4:2 hesabı ilə məğlub edən Argentina kollektivi dünya çempionatının finalına vəsiqə qazanmışdır.

### "İnter" Avropa Liqasının ikinci təsnifat mərhələsinə yüksəlib



İyulun 10-da futbol üzrə Avropa Liqası yarışlarının ilkin təsnifat mərhələsinin cavab oyunları keçirilmişdir.

AzərTAc xəbər verir ki, turnir çərçivəsində Bakının "İnter" komandası Moldovanın "Tiraspol" kollektivi ilə qarşılaşmışdır.

"Şəfa" stadionunda keçirilən görüş "İnter"in 3:1 hesablı qələbəsi ilə başa çatmışdır. Komandalar arasında Moldovada keçirilmiş ilk oyunda "İnter" 3:2 hesabı ilə qalib gəlmişdi. İki oyunun nəticəsinə görə, "İnter" Avropa Liqası yarışlarının ikinci təsnifat mərhələsinə vəsiqə qazanmışdır. Bakı təmsilçisi növbəti mərhələdə İsveçin "Elfsborq" kollektivi ilə qarşılaşacaqdır.

### Azərbaycanlı K-1 idmançısı növbəti qələbəsini qazanmışdır



Azərbaycanlı K-1 idmançısı Zabit Səmədov növbəti döyüşünü keçirmişdir. AzərTAc xəbər verir ki, Qroznıda təşkil olunmuş turnirdə Zabit Səmədov K-1 üzrə super döyüşdə rinqə çıxmışdır. Onun rəqibi Almaniyanı təmsil edən Stefan Leko olmuşdur. Görüş cəmi 12 saniyə davam etmiş və müvazinətini itirən Stefan Leko məğlubiyyətlə barışmışdır. Zabit Səmədov demişdir: "Döyüşə çox yaxşı hazırlaşmışdım. İnanmırdım ki, görüş belə erkən başa çatacaqdır. İlk zərbəm rəqibi tutdu. İkinci zərbə zamanı müvazinətini itirdi və yerə yıxıldı. Qələbəyə çox sevinirəm. Mənə dəstək olanlara təşəkkür edirəm".

### Naxçıvanda dünya kuboku uğrunda yarışa yekun vurulmuşdur



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil edilən və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunan veteranlar arasında ağır atletika üzrə dünya kuboku uğrunda yarışa yekun vurulmuşdur.

AzərTAc xəbər verir ki, 170 idmançının iştirak etdiyi yarışın son günü Azərbaycan ağır atletləri üçün uğurlu olmuşdur. Namiq Ağayev öz çəki dərəcəsində bütün rəqiblərini qabaqlamış və dünya kubokunun sahibi olmuşdur. Onun uğurunu Samir Qeyisov da təkrarlamışdır. Digər iki idmançımız - Samir Hüseynov və İlham Hüseynov gümüş medallara layiq görülmüşlər.

### Velosiped idmanı üzrə Federasiya kubokunun qalibi müəyyənləşmişdir



Bakıda velosiped idmanının MTB (dağ velosipedi) növü üzrə Federasiya kuboku yarışı keçirilmişdir.

AzərTAc xəbər verir ki, Zığ şosesindəki zeytun bağları adlanan ərazidə təşkil olunan yarışda Azərbaycan Velosiped İdmanı Federasiyasının nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin idmançıları mübarizə aparmışlar.

Yarışda bütün yaş kateqoriyaları üzrə idmançılar hər biri 2,4 kilometrdən ibarət 5 dövrədə (cəmi 12 kilometr) yarışmışlar. Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası "Synergy Baku"nun üzvü Aqşin İsmayılov marşrutu 29 dəqiqə 53 saniyəyə başa vurmaqla "Federasiya kuboku" yarışının qalibi olmuşdur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Birinci Dünya müharibəsinin başlanmasından 100 il keçir*

# Sərkərdələrimiz bizim fəxrimizdir

***Başlanmasından 100 il ötən I Dünya müharibəsi bəşər tarixinin dağıdıcı, ağır müharibələrindən sayılır. Birinci Dünya müharibəsi bir sıra dövlətlərin dünyanı bölüşdürmək həvəsindən doğan imperialist ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş vermişdi. Bu müharibə tarixdə ədalətsiz, imperialist müharibə kimi yer tutub.***



İmperialist dövlətlərin rəhbərləri müharibəyə qabaqcadan hazırlaşmışdılar. Həmin ərəfədə iki hərbi koalisiya formalaşmışdı: Almaniya, Avstriya-Macarıstan və İtaliya - Üçlər İttifaqı; İngiltərə, Fransa, Rusiya isə Antanta adı almış hərbi blok yaratmışdılar. Bir çox ölkələr də müharibə ərəfəsində və ya onun gedişində bu hərbi bloka qoşulmuşdular.

Müharibəyə hazırlaşan dövlətlər nəinki güclü ordu yaratmış, hətta böyük ehtiyat qüvvələr toplamışdı. Təkcə Rusiya şəxsi heyəti 1 mln. 300 min nəfər olan orduya və təlim keçmiş 5 mln. 650 min nəfər ehtiyat qüvvəyə malik idi. Alman ordusunda isə 788 min nəfər şəxsi heyət, ehtiyatda isə 4 mln. 900 min adam var idi. Əksər ölkələrin silahlı qüvvələri quru qoşunları və hərbi dəniz donanmasından ibarət idi.

Müharibə necə başlamışdı?

1914-cü il iyulun 28-də Avstriya-Macarıstan Rusiyanın müttəfiqi olan Serbiyaya müharibə elan etdi. Elə həmin gün Rusiyada ümumi səfərbərlik elan olundu. Almaniya avqustun 1-də Rusiyaya, avqustun 3-də Fransaya, avqustun 4-də isə İngiltərə Almaniyaya müharibə elan etdi. Sonrakı mərhələlərdə müharibəyə daha 28 dövlət qoşuldu.

1914-1918-ci illərdə müharibə aparan tərəflərin strateji planları və fəaliyyət xarakteri hər il dəyişirdi. 1914-cü il kampaniyası çevik hərəkətlərlə səciyyələnir.

1915-ci il kampaniyası göstərdi ki, sandıqlı tüfənglər, pulemyotlar, toplar və səhra istehkamları müdafiənin hücuma nisbətən daha etibarlılığını təmin edib.

1915-ci ildə gedən döyüşlərdə ilk dəfə olaraq zəhərləyici vasitələr tətbiq edilmiş, sürətli yüngül təyyarələrdə pulemyotlar, ağır təyyarələrdə isə bombardmançı avadanlıq quraşdırılmışdı. Vacib döyüş vasitəsinə çevrilən aviasiya - kəşfiyyat, qırıcı və bombardmançı aviasiyaya bölünürdü. Döyüş əməliyyatlarını aparma üsulları da dəyişirdi.

1916-cı il iyunun ortalarında Rusiya ordusu düşmən qüvvələrini özünə cəlb etmək məqsədilə hücuma başlamaq əmrini alır. 1916-cı il kampaniyasında A.Brusilovun komandanlığı altında Rusiyanın Cənub-Qərb cəbhəsinin uğurlu hücumu böyük rol oynadı. Rusiya ordusunun iyun-sentyabr hücumu dövründə Avstriya-alman qoşunlarının 1,5 mln. canlı qüvvəsi məhv edilərək, 400 mindən artıq döyüşçüsü əsir götürüldü. Qeyd olunan əməliyyatlarda isə rus qoşunları 500 minə yaxın canlı qüvvəsini itirdi.

Antantanın cəbhədə güclənməsi, alman koalisiyasının parçalanması Almaniyanı 1918-ci il noyabrın 11-də təslim sazişini imzalamağa məcbur etdi.

Birinci Dünya müharibəsi 4 il 3 ay 10 gün davam etmişdir. Müharibə aparan ölkələr 70 mln. insanı səfərbər edərək, onların silahlandırılması üçün 327,6 min təyyarə, 9200 tank və digər silahlar istehsal etmişdi. Cəbhələrdə 10 mln. insan həlak olmuş, 20 mln. insan yaralanmışdı. Müharibə Almaniya, onun müttəfiqlərinin məğlubiyyəti və imperialist sülh müqavilələrinin imzalanması ilə nəticələndi. Bu müqavilələr əsasında, məğlub edilmiş ölkələrin müstəmləkə və ərazilərinin bir qismi qalib ölkələr arasında bölüşdürüldü.



Mövcud olan beynəlxalq ziddiyyətlərin heç birini həll etməyən Birinci Dünya müharibəsi ciddi ziddiyyətlərin yaranmasına səbəb oldu ki, bu da gələcəkdə yeni hərbi münaqişələrin başlanmasına zəmin yaratdı.

Bu ağır müharibədə Azərbaycan oğulları da iştirak etmiş, igidlik və şücaət göstərərək, orden və medallarla təltif olunmuşlar. Müharibə illərində Rusiya ordusu tərkibində 250-dən çox azərbaycanlı zabit vuruşmuşdu.

Azərbaycanlı generallardan Teymur bəy Novruzov, Əmir Kazım Qacar, Əmənulla xan Qacar, ştabs-kapitan Tərlan Əliyarbəyov Birinci Dünya müharibəsinin iştirakçısı olmuşlar.

General T.Novruzov dörd dəfə "Müqəddəs Georgi" ordeninin fərqlənmə nişanı ilə təltif edilmişdi. Səməd bəy Mehmandarov müharibə başlananda 21-ci piyada diviziyasının komandiri idi. Qeyd edim ki, 21-ci piyada diviziyasının tərkibinə 81-ci Abşeron, 82-ci Dağıstan, 83-cü Samur, 8-ci Şirvan, 205-ci Şamaxı, 206-cı Salyan alayları daxil idi. O, müharibənin gedişində tam artilleriya generalı rütbəsinə layiq görülərək 2-ci Qafqaz korpusunun komandiri təyin edilmişdi.

"Rus artilleriyasının Allahı" kimi tanınan Əliağa Şıxlinski müharibə illərində general-leytenant rütbəsinə layiq görülmüş və 1917-ci ildə 10-cu ordunun komandanı təyin edilmişdi.

Hüseyn xan Naxçıvanski müharibədə tam süvari generalı rütbəsinə qədər yüksəlmişdi. O, 1-ci qvardiya süvari korpusunun komandiri idi. Rus ordusunda xidmət edən azərbaycanlı poruçik Fərrux



ağa Qaibov 1916-cı ildə Vilno üzərində Almaniyaya məxsus 4 hərbi təyyarəyə qarşı təkbaşına dörd saat ərzində döyüşərək, onlardan 3-nü vurub yandırmış və özü də həlak olmuşdu.

Müharibədə iştirak edən Həbib bəy Səlimov dərin hərbi biliklər nümayiş etdirmiş və Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Akademiyasına daxil olmuşdur. Polkovnik Səlimov inqilabaqədərki dövrdə Hərbi Akademiyanı bitirən yeganə azərbaycanlı zabit idi.

Qafqaz müsəlmanlarından təşkil edilmiş süvari diviziyanın tərkibində sırf azərbaycanlılardan ibarət tatar süvari alayı vuruşurdu. Onlar cəbhələrdə döyüş şücaəti göstərərək, Azərbaycanın hərb tarixinin qəhrəmanlıq salnaməsini yaratdılar.

Əlbəttə, müharibə dövründə fədakarlığı ilə seçilmiş bəzi soydaşlarımızın öz yeri vardır və zamanından-məkanından asılı olmayaraq onların xidmətlərini unutmaq olmaz.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 238
Nüsxə 4570